**AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI**

# ƏMR

**30 sentyabr 2025-ci il** **10-1/3-1-175/2025**

## İntizam və tənbeh tədbirinin götürülməsi barədə

Auditorlar Palatasının üzvü, sərbəst auditor Bəşirov Şərif Miri oğlunun Palataya ünvanladığı 2025-ci il 16 sentyabr tarixli “töhmət tənbehi tədbirinin üzərindən götürülməsi və səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalarda iştirak edən auditorların siyahısına daxil edilməsi” barədə müraciətini nəzərdən keçirərək, habelə onun sərbəst auditor kimi uzunmüddətli səmərəli fəaliyyətini, bu müddət ərzində auditor xidmətinin nüfuzunun qorunması, auditə ictimai etimadın artırılmasındakı əməyini nəzərə alaraq

**ƏMR EDİRƏM:**

1. Sərbəst auditor Bəşirov Şərif Miri oğlu tərəfindən Auditorlar Palatasına ünvanlanmış 2025-ci il 16 sentyabr tarixli müraciət nəzərə alınsın (əlavə olunur).
2. Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin “Aparılmış auditlərin nəticəsinin keyfiyyətsiz hesab edilməsinə və Beynəlxalq Audit Standartlarının tələblərinə riayət edilməməsinə görə Auditorlar Palatasının üzvləri barəsində intizam və tənbeh tədbirlərinin görülməsinə dair” 2025-ci il 10 mart tarixli 10-1/3-1-33/2025 nömrəli əmri ilə sərbəst auditor Bəşirov Şərif Miri oğluna verilmiş töhmət tənbehi üzərindən götürülsün.
3. Sərbəst auditor Bəşirov Şərif Miri oğlu səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalarda iştirak edən auditorların siyahısına daxil edilsin.
4. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, üç gün müddətində bu əmrin mətninin sərbəst auditor Bəşirov Şərif Miri oğluna göndərilməsini təmin etsin.
5. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki, bir həftə müddətində bu əmrin 2-ci bəndindən irəli gələn məsələləri həll etsin.
6. Dövlət oqranları və qeyri-hökumət təşkilatları ilə iş şöbəsinə (E.Qəmbərov) tapşırılsın ki, bir həftə müddətində bu əmrin 3-cü bəndindən irəli gələn məsələləri həll etsin.

**Palatanın sədri** **Vahid Novruzov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.esd.asan.gov.az/info/esign/nj3G7HpxwJ%2BY06aOuuJAm9YP6Q4LkTgP4eopWYbyYOc%3D